# Azərbaycanda insan hüquq və azadlıqları daha etibarlı müdafiə olunur



Toğrul HÜSEYNOV,
Azərbaycan Respublikası
Hərbi prokurorunun böyük köməkçisi,
ədliyyə polkovniki.

**İnsan hüquq və azadlıqlarının, eləcə də vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədidir. Ölkəmizdə hüquqi islahatlar ulu öndər Heydər Əliyevin tövsiyə və tapşırıqları ilə başlanmış və bilavasitə onun rəhbərliyi ilə həyata keçirilmişdir. 1995-ci ildə keçirilmiş ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan dövlətinin demokratik dəyərlərə və prinsiplərə uyğun ilk Konstitusiyasının qəbul edilməsi buna böyük təkan oldu. Bununla da, Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin təməli qoyuldu. Konstitusiyanın qəbul edilməsi vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşdırılması, siyasi və hüquq sistemində möhkəm özülün yaradılması işində mühüm addım oldu.**

Bu, insan hüquq və azadlıqlarının qorunması sahəsində yeni qanunların qəbul edilməsinə, hüquqi islahatların genişləndirilməsinə böyük təkan verdi. Azərbaycan Konstitusiyasında əksini tapan müddəaları tətbiq etmək məqsədi ilə 1996-cı il iyulun 8-də ümummilli lider Heydər Əliyev "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" Sərəncam imzaladı. Həmçinin, ölkədə aparılan konstitusiya islahatları çərçivəsində qısa zamanda beynəlxalq standartlara uyğun olan "Konstitusiya Məhkəməsi haqqında" "Prokurorluq haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar, habelə Azərbaycan Respublikasının Ailə, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar, Vergi, Cəzaların İcrası Məcəllələri və sair normativ-hüquqi aktlar hazırlanaraq qəbul edildi. Bütün bunlar ölkədə qanunçuluğun möhkəmləndirilməsinə xidmət edən hüquqi baza olmaqla yanaşı, həm də bu prosesin həyata keçirilməsini təmin edən orqanların fəaliyyətini dəqiqliklə nizamlayır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə zamanın tələblərinə uyğun bu gün uğurla davam etdirilir.

Son illər ədalət mühakiməsinin həyata keçirilməsi istiqamətində baş vermiş əsaslı müsbət dəyişikliklər bu sahədə kompleks tədbirlərin həyata keçirilməsi sayəsində mümkün olmuş, bütövlükdə məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı proqram xarakterli sənədlər qəbul edilmiş, məhkəmələrin infrastrukturunun yenilənməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni nəsil hüquqşünasların formalaşdırılması istiqamətində mühüm tədbirlər görülmüş, məhkəmə, prokurorluq orqanlarının və ümumiyyətlə, dövlətin hüquqi-inzibati sahədə fəaliyyətini həyata keçirən demək olar ki, bütün qurumların əməkdaşlarının işə qəbulunda şəffaflıq daha da artırılmışdır.

Tarixi inkişaf baxımından çox da böyük olmayan müddətdə respublikamızda məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, hüquq sisteminin inkişafı istiqamətində mühüm tədbirlər görülməklə prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün yüksək tələblərinə uyğun qurulması üçün son illər ərzində daha böyük işlər görülmüşdür. İslahatların həyata keçirilməsi, fəaliyyətdə səmərəliliyin artırılması üçün təkmilləşmənin aparılmasının, bütövlükdə müasirləşmənin sonu olmadığından bu proses bu gün də intensiv şəkildə davam etməkdədir.

Azərbaycanda son illər aparılan, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları sayəsində tamamilə yeni və beynəlxalq standartlara cavab verən, vətəndaşların hüquq və azadlıqlarının daha da etibarlı müdafiəsini təmin edən müasir məhkəmə sistemi yaradılmış və bu sahədə əldə edilmiş nailiyyətlər və qabaqcıl təcrübə ölkəmizdə bu islahatlara önəmli dəstək verən Avropanın aparıcı dövlətləri tərəfindən də etiraf olunmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanı məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin başlanğıcı olmuşdur. Bu fərman konseptual əhəmiyyətli proqram xarakterli mühüm dövlət sənədi olmaqla ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatların məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanması və bu sahədə islahatların genişləndirilməsi zərurətindən irəli gəlmişdir.

Ölkədə hüquq institutlarının inkişafı, normativ-hüquqi bazanın, hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar aparılan davamlı məhkəmə-hüquq islahatları bu sahədə prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkilini, habelə insan hüquq və azadlıqlarının, ictimai maraqların yüksək peşəkarlıq səviyyəsində müdafiə olunmasını zəruri edir. Azərbaycan Prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları, - ədliyyə, daxili işlər, məhkəmə ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur. Bu gün prokurorluq orqanları cənab Prezident İlham Əliyevin respublikamızın yüksəlişinə xidmət edən siyasi kursunun uğurla reallaşması istiqamətində, cəmiyyətdə qanunçuluğun, ictimai-siyasi sabitliyin, əmin-amanlığın, hər kəsin hüquq və mənafeyinin qorunmasına əzmlə xidmət edirlər.

Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə insan faktoru, insan hüquq və azadlıqlarının müdafiəsi ən önəmli vəzifələrdən birinə çevrilir. Yalnız məhkəmə-hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi, vətəndaş cəmiyyəti qurmaq mümkündür. Ümummilli lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində ölkəmizdə həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin edəcəkdir. ■

Respublika.- 2020.- 18 yanvar.- S.4.